Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası




# Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə üsulları

**İnsan alverinə qarşı mübarizənin təbliği ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2020**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə üsulları :** İnsan alverinə qarşı mübarizənin təbliği ilə bağlı mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. R.Məmmədli ixt.red. və burax.məsul Ş. Qəmbərova; red.K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020. – 46 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

Bu dünyada uşaq olmaq böyük olmaqdan çətindir. Bəzən biz böyüklər körpələrin sadəcə sevgiyə və qayğıya ehtiyacı olduğunu unuduruq. Onların saf, təmiz, bütün çətinliklərdən uzaq olan dünyaları bizim dünya deyə yaşadığımız bu aləmdən o qədər təmiz, kiçik bir pislik belə bilməyən qəlbləri biz böyüklərin qəlbindən bəşəriyyət qədər böyükdür. Bizlərin nankor olduğumuz zamanlarda su kimi pak ürəklərin sahibləri kiçik şeylərlə sevinməyi, gülməyi bacarırlar. Bizlər insanları, dünyanı sevməyi, sevilməyi, bir gülüşün nələrə qadir olduğunu gözəl üzlü körpələrdən öyrənirik. İnsanlar xoşbəxtliyi o qədər fərqli yerlərdə axtarırlar ki… Amma ətraflarına baxsalar onları milyonlarla xoşbəxtliyin əhatə etdiyini, xoşbəxtliyi onlara bəxş edəcək varlıqların yanı başlarında olduğunu görərlər. Bu böyük xoşbəxtliyi əldə etmək üçün kiçicik sevgi və qayğı yetər. Bəzən isə bizlər xoşbəxt olmadığımızı deyirik… Məgər kimsəsiz bir körpəyə bir şokolad belə verdiyimiz zaman onun üzündəki o bir anlıq təbəssüm, gözlərinin sevinclə günəş kimi parlaması xoşbəxtlik deyilmi…?! Yaxud da bir ananın hələ yenicə doğulmuş körpəsini göz yaşları ilə bağrına basması dünyanın ən böyük xoşbəxtliyi deyilmi…?! Həyatımızda bu qədər gözəlliklər olduğunu bilərək gəlin xoşbəxtliyi, sevgini, təbəssümü başqa yerlərdə deyil, bu balaca fidanların gözlərində axtaraq və onların qar kimi bəmbəyaz dünyasını böyük problemlər dediyimiz, əslində, həll etməsi o qədər də çətin olmayan şeylərlə qaranlığa çevirməyək. Çünki bu körpələr biz böyüklərdən həyatı öyrənməyə çalışır, gələcəkdə kim olacaqlarını ata və analarına, müəllimlərinə, böyüklərə baxaraq öyrənirlər. Gəlin, gələcəyimiz xoşbəxtlik və sevgi dolu bir dünya olsun… Unutmayaq ki, özümüzü böyük hesab etsək də, hər birimizin qəlbinin

dərinliklərində bir uşaq yatıb və o uşağı oyada bilsək inanın dünyanın ən xoşbəxt insanı bizlər olarıq, çünki uşaqlar pislik, çirkinlik nədir bilməzlər… Düşünürsən ki, gələciyinin qırılmaz, möhkəm bir körpü olması üçün sən nə edə bilərsən? Çox şey edə bilərik, əzizlərim. Bizim kiçik saydığımız şeylər körpələrin bir təbəssümünə səbəb ola bilər. Düşünürəm ki, hər kəs əlindən gələni etsə, yardıma, köməyə ehtiyacı olan, bizim hər sözümüzdə "uşaqlar bizim gələcəyimizdir" dediyimiz körpələri pisliklərdən uzaq tutsa, onlara dünyanın necə gözəl bir yer olduğunu, oxumağın, elmin hər insana lazım olduğunu öyrətsə gələcəyimiz əmin əllərdə olar. Bəli, əziz oxucular, bizlər də uşaqlara necə yararlı ola bilərik deyə düşündük və elmin, oxumağın, mütaliənin körpələrə hər şeydən çox lazım olduğunu anladıq. Çünki sağlam gələcək sağlam gəncliyin çiyinləri üzərində dayanır.!

Qələmə aldığımız bu metodik vəsait zorakılıqdan əziyyət çəkən yetkinlik yaşına çatmamış şəxslərin müəyyən edilməsi, onların hüquqlarının və mənafelərinin qanunla qorunması məqsədilə müvafiq tədbirlərin aparılması üçün beynəlxalq standartlara əsaslanan tövsiyələrin verilməsi məqsədini daşıyır.

***Böyüməkdə olan gənc nəslin hüquqi baxımdan tərbiyələndirilməsi üçün uşaq cinayətkarlığı ilə mübarizə***




Hamımıza bəllidir ki, hər bir insanın əhəmiyyəti onun Vətən qarşısında borcu ilə ölçülür. Vətənin layiqli övladı olmaq üçün daha çox elmi biliklərə yiyələnmək lazımdır. Hazırda kompüter əsrində yaşasaq da, elmi biliklərə yiyələnmədən mənəviyyatca saf, milli dini dəyərlərə sahib olmaq olmaz.

Çünki bu biliklər yetişməkdə olan gənc nəslin daha kamil inkişaf etməsi üçün vacib olan əsas ünsürlərdəndir. Çünki insan öyrənməklə formalaşır, mətinləşir, dərin biliyə yiyələnir. Bəs kamil vətəndaş necə olmalıdır? Necə yaşamalı, həyatını necə qurmalıdır?

Yetkinlik yaşına çatmamış və müstəqil həyata qədəm qoymuş yeniyetmələr daha çox bu suallarla qarşılaşırlar. Onlara bu sualların həllində kömək edənlər sırasında məktəb və mədəniyyət ocaqlarımızla yanaşı kitabxanalarımızda xüsusi yer tutur. Yetkinlik yaşına çatmayanların çoxu təhsil almadan əmək fəaliyyətinə başlayaraq cəmiyyət qarşısında müəyyən vəzifələr daşımağa başlayırlar. Bu baxımdan hələ öz hüquqlarını dərindən

bilmədən, kortəbii şəkildə heç bir məsuliyyəti dərk etmədən cəmiyyətə atılırlar. Bu da onlarda hələ uşaq yaşlarından bilməyərəkdən müəyyən hüquq məsuliyyətinə cəlb olunmağına gətirib çıxarır. Yeniyetmələrin çoxu polis, müstəntiq, hüquq, prokurorluq, idarələrinin funksiyalarını, hüquq və vəzifələrini düzgün başa düşmür. Buna görə də ətraf aləmdə baş verən hadisələrin çoxuna kortəbii münasibət bəsləyərək nəyin cinayət olduğunun fərqinə varmırlar.

Yetkinlik yaşına çatmayanların hüquq tərbiyəsində məktəblərin, pedaqoji müəssisələrin, uşaq təşkilatlarının, kitabxanaların xüsusi rolu vardır. Məhz bu kollektivlərin həyata keçirdikləri tədbirlər nəticəsində onlarda cəmiyyət hadisələri haqqında xüsusi təsəvvür yaradılaraq, həyat hadisələrinə düzgün yanaşmaq üçün onlara zəmin yaradılır.

Yaş artıqca yeniyetmələrdə cinayət hüquq normalarını öyrənməyə maraq da güclənir. Bu psixoloji meyl əsasən VII – IX sinif şagirdləri üçün səciyyəvidir. Belə ki, azyaşlılar barəsində cinayətetmə, onları cinayətə cəlb etmə məsuliyyəti ağırlaşdıran hallardır.

Yetkinlik yaşına çatmayanları cinayətkarlığa, alkoqolizmə, narkomaniyaya cəlb etmə və s. görə də ciddi cəzalar tətbiq olunur. Millətin gələcəyini müəyyənləşdirən o millətin uşaqları, gəncliyidir. Dünənin uşaqları bu günün gəncləri, bu günün gəncləri isə sabahın gələcəyidir. Sabahın idarəçiləri, sabahın ailə başçılarıdır. Ancaq bəzi problemlər var ki, bu dilindən, irqindən asılı olmayaraq hər bir millətin problemidir. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq halları da belə problemlərdəndir.

## Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə üsulları

Zorakılıq və onun gündən-günə artan formaları dünyanın ən qorxulu ictimai problemlərindəndir. Zorakılıq daha çox azyaşlı uşaqlara qarşı yönələndə isə məsələnin daha təhlükəli həddə çatdığı aydın olur. Uşaqlarla davranış, məktəbdə, cəmiyyətdə, xüsusilə ailədə onlara münasibət o qədər incə, həm də məsuliyyətli işdir ki, bu sahədə ehtiyatlı olmaq lazımdır. Xüsusən azyaşlı uşaqlar aldıqları sevgini, gözəl tərbiyəni, eləcə də zorakılığı və aqressiyanı böyüyəndə daha kəskin formada cəmiyyətə qaytarırlar. Sonda qazanan da, itirən də cəmiyyət olur.

**Zorakılıq** - özünə, digər şəxsə, bir qrup insana, icmaya qarşı yönələn və nəticədə cismani zədələr, ölüm, psixoloji travma, inkişafın pozulması və ya digər formada zərər vuran (yaxud böyük ehtimalla güman olunan) həqiqi və ya hədə şəklində qəsdən edilən fiziki qüvvə və ya səlahiyyətin tətbiq edilməsidir.
**Kobud rəftar** anlayışına BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası aşağıdakı kimi tərif verir: kobud rəftar – fiziki və ya psixoloji zorakılığın, təhqirin, sui-istifadənin, qayğısızlığın və ya etinasız münasibətin, istismarın, o cümlədən sui-istifadənin hər cür formasıdır.
**Uşaqlara qarşı zorakılıq** - fiziki, psixoloji, iqtisadi, cinsi, sosial təcavüzün istifadəsi ilə uşağın konstitusiya və azadlıq hüquqlarının pozulmasıdır. Valideynlər və digər insanlar tərəfindən uşaqlara qarşı edilən zorakılıq uşağın sağlamlığına, onun yaşamasına, inkişafına və ləyaqətinə bilavasitə zərər vura bilən fiziki və emosional davranışın bütün mənfi formalarını, cinsi zorakılığı, qayğısızlığı və etinasızlığı özündə cəmləşdirir.

Uşaq dedikdə 18 yaşadək şəxs nəzərdə tutulur. Qohumlar və yaxın insanlar dedikdə aşağıdakılar nəzərdə tutulur: valideynlər, qardaş və bacılar, həyat yoldaşı, övladlar, nəvələr, bir yerdə yaşayan insanlar, nişanlı olanlar, evlənmək istəyənlər.

**Məcburiyyət** – fiziki və və ya psixoloji təsir göstərməklə uşağın seçim haqqı olduğu halda hər hansı bir fəaliyyətin görülməsi və ya görülməməsinə məcbur edilməsidir.

**Fövqəladə hal** – uşağın həyatı və ya sağlamlığı üçün təhlükə yaradan hal.

**Acizlik, əlacsızlıq** (əlacsız vəziyyət) – özünə yardım etmək üçün heç nə edə bilməmək. Bunun səbəbi azyaşlılıq, ahıl yaş, fiziki qüsurlar, psixi və emosional durumun pozulması, xəstəlik və ya huşsuz vəziyyət, alkoqol və ya narkotik sərxoşluq ola bilər. Bu halda olan insanlara bilərəkdən kömək göstərməmək də cinayət hesab olunur.

**Sağlamlığa vurulan zərər** – bədən xəsarətləri, yəni orqanların, toxumaların anatomik bütövlüyünün və ya onların fizioloji funksiyalarının pozulması və ya müxtəlif faktorların (mexaniki, fiziki, kimyəvi, bioloji, psixoloji) təsiri altında yaranan xəstəlik və ya patoloji vəziyyət.

**Viktimlik** (lat. victima — "qurban") şəxsin müxtəlif şəraitlərin qurbanı olması kimi kifayət qədər sabit, davamlı fərdi xüsusiyyətidir. Belə şəxslərin öz-özünə qeyri-adekvat aşağı qiymət verməsi nəticəsində onların cinayətlərin qurbanlarına çevrilməsinə gətirib çıxarır.

**Qeyri-verbal davranış** – insanın fikirlərini, emosiya və hisslərini (məsələn, aqressiya, etibarsızlıq, həddindən artıq qorxaqlıq, ürkəklik və s.) dil işarələri (sözlər) olmadan müxtəlif

yollarla ötürülməyi (və ya qəbul etməyi) nəzərdə tutulur. BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasına görə uşağın yaşamaq, normal inkişafı üçün zəruri həyat səviyyəsinə malik olmaq, öz baxışları və fikrini sərbəst ifadə etmək, fikir, vicdan və din azadlığı, sərbəst surətdə mədəni həyatda iştirak etmək, iqtisadi istismardan müdafiə olunmaq, təhsil almaq, lazımi məlumat əldə etmək, ədliyyə orqanlarına müraciət etmək, sui istifadədən və etinasız münasibətlərdən müdafiə olunmaq hüquqları var. Uşaq hüquqlarının pozulmasına, o cümlədən zorakılığa görə valideynlər, onları əvəz edənlər, ya da digər böyüklər inzibati, cinayət, ailə və ya mülki hüquqlar əsasında həm mənəvi, həm də hüquqi baxımdan məsuliyyət daşıyırlar.

**BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası dünya dövlətləri tərəfindən zorakılığa qarşı aşağıdakı tədbirlərin aparılmasını tövsiyə edir:**



Hər bir uşağın yaşamaq hüququ var. Uşağın sağ qalması və sağlam inkişaf etməsi maksimal dərəcədə təmin edilməlidir (maddə 6).

Hər bir uşağın şəxsi həyatı olmasına hüququ var. Uşaq onun həyatına özbaşına və ya qanunsuz müdaxilədən, şərəf və nüfuzuna, ailəsinə və evinə qəsd edilmədən qorunmalıdır (maddə 16).

Hər bir uşağın səhiyyənin mükəmməl xidmətlərindən istifadə etmək hüququ var. Xəstəliklərə və doyunca yeməməyə qarşı mübarizə təşkil olunmalıdır və uşağın sağlam yaşaması üçün təmiz su, təmiz ətraf mühit təmin olunmalıdır (maddə 24).
Hər bir uşağın fiziki, əqli, ruhi, mənəvi və sosial inkişafı üçün lazım olan həyat səviyyəsinə malik olmağa hüququ var (maddə 27).

Uşaq cinsi istismarın bütün növlərindən qorunmalıdır (maddə 34).

Qanunu pozan hər bir uşaq kobud rəftarın bütün növlərindən müdafiə olunmalıdır, o, böyük insanlarla bir cəza çəkmə müəssisəsində yerləşdirilməkdən və ailə üzvləri ilə münasibətdən məhrum edilməkdən qorunmalıdır (maddə 37).

Kobud rəftar qurbanı olmuş hər bir uşağa özünə hörməti qaytarmaq üçün yardım göstərilməlidir (maddə 39). Zorakılığın qarşısının alınması multisektoral yanaşma tələb edir, yəni bu fəaliyyətə hüquq mühafizə sisteminin, qəyyumluq və himayə orqanlarının, sosial və pedaqoji dairələrin, tibbi və psixoloji xidmətlərin əməkdaşları cəlb edilməlidirlər. Bu sahədə səmərəli

işin təşkili üçün tibb, polis və sosial xidmətlər arasında informasiya mübadiləsi vacibdir.

Məişət zorakılığının qarşısının alınması üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirlyinin "Tədbirlər Planı"nada zorakılıqla mübarizənin gücləndirilməsi, zorakılıq qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması, bu sahədə geniş maarifləndirmə işinin təşkili nəzərdə tutulmuşdur. Həmçinin 2000-ci ildən qüvvəyə minmiş Ailə Məcəlləsində valideynlik hüququndan məhrumetməyə əsas olan halların siyahısı genişləndirilib (Əlavə 1). Məcəlləyə əsasən, məhkəmə belə işlərə baxarkən valideynlər tərəfindən öz vəzifələrinin yerinə yetirilməməsi, alimentin qəsdən ödənilməməsi, valideynlik hüququndan sui-istifadə edilməsi, uşaqlara qarşı məişət zorakılığının törədilməsi, uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayətin törədilməsi və s. halları nəzərə almalıdır.

**Zorakılığın növləri: Zorakılığın aşağıdakı növləri ayırd edilir:**

- Gizli və aşkar;
- Hal-hazırda və keçmişdə baş verən ;
- Dəfələrlə təkrar olunan və ya tək-tək təsadüf edilən;
- Hadisənin baş verdiyi yerdən və mühitindən asılı olaraq: ailədə, cəmiyyətdə, təhsil və cəzaçəkmə müəssisələrində baş verən.

Bundan əlavə zorakılığın yuxarıda sadalanan hər bir növü aşağıdakı formalarda özünü büruzə verə bilər: Fiziki , Psixoloji (emosional), Cinsi, İqtisadi, Sosial Uşaq istismarı, Etinasızlıq.

**Fiziki zorakılıq** – fiziki güc və ya silahdan istifadə edərək uşağa qəsdən vurulan zədə və ya travmadır. Bura daxildir: qətl; fiziki hücum (müxtəlif əşyalardan istifadə edərək və ya onlardan istifadə etmədən döymək, təpikləyərək döymək, soyuq və odlu silahla hücum etmək); işgəncə (buz vannası, siqaretlə dərini yandırmaq, yaraların üzərinə duz səpmək); fiziki olaraq yuxudan, qidadan, işıqdan, vacib istifadə əşyalarından məhrum etmək; fiziki məhdudiyyətlərlə (ip, qandal, zəncir) və hərəkətlərlə (yerdəyişmə) azadlıqdan məhrum etmək; tibbi və digər əsas xidmətlərin alınmasında maneə yaratmaq. Uşağın spirtli içkilər, narkotik maddələr, zəhərləyici maddələr və ya tibbi bihuşedici (məsələn, həkim tərəfindən təyin olunmayan yuxugətirən dərmanlar) vasitələrin zorla qəbuluna cəlb edilməsi də fiziki zorakılığa daxildir.

**Psixoloji (emosional) zorakılıq** – uşaq üzərində onu təcrid və ya təhqir etməklə nəzarətdir. Psixoloji zorakılıq özünü daimi tənqid, təhqir, alçaldılma ilə ifadə edir; özünə, zərərçəkmiş və ya digər şəxslərə qarşı zorakılıq təhdidləri; ev heyvanlarına qarşı zor tətbiq etmək və ya əşyaları sındırmaqla hədə-qorxu gəlmək; təqib; zərərçəkənin üzərində nəzarət, o cümlədən gün rejiminə nəzarət; zərərçəkənin sosial dairəsi üzərində nəzarət; zərərçəkənin müxtəlif vasitələrə çıxışına nəzarət (sosial və tibbi yardım alınmasına, dərmanlara, nəqliyyata çıxış, dostlarla ünsiyyətə, təhsil almağa və s.); zərərçəkəni onu alçaldan hərəkətləri etməyə təhrik etmək və s.

**Cinsi zorakılıq: Təcavüzkar qurbanlarını aşağıdakı yollarla razılığa gətirir:** uşaqla və onun valideynləri (qəyyumları) ilə dostluq əlaqələri yaratmaqla; uşağın özünə və onun fəaliyyətinə çox maraq göstərməklə ("heç kim səni mənim qədər çox

istəmir”); uşağa müxtəlif hədiyyələr (geyim, şirniyyat), o cümlədən arzuolunmaz hədiyyələr (alkoqol, tütün məhsulları, narkotik maddələr də daxil olmaqla) almaqla; həmçinin oyunlar, gəzintilər, şənliklər, pul təklif etməklə; uşağı və ya onun yaxınlarını hədələmə və qorxutmaqla, o cümlədən evdən getməyi ilə qorxutmaqla; uşağın günahkar olduğunu boynuna qoymaqla; təminat və köməkdən məhrum etməklə.

**İqtisadi zorakılıq** – zərərçəkmişin yaşayış vasitələrinə çıxışlardan məhrum edilməsi və onun üzərində nəzarətdir. Bu, gəlirlərin gizlədilməsi, ailə büdcəsinin xərclənməsi, maliyyə məsələləri ilə bağlı qərarların müstəqil verilməsi, vəsaitlərin xərclənməsinə ciddi nəzarətin olması deməkdir. Zorakılığın bu növü qanun pozuntusu hesab edilmir, amma çox təhlükəlidir. Çünki cəzadan yayınaraq psixoloji, fiziki və cinsi zorakılıq etməyə şərait yaradır, həmçinin qurban ona zərər vurandan asılı olur.

**Uşağın kommersiya və ya digər məqsədlə istismarı** – zəif, həssas vəziyyətlərdə, etibar etdikdə, təbəqələşmiş səlahiyyət zamanı pul, sosial və ya siyasi fayda qazanmaq məqsədilə uşaq əməyi də daxil olmaqla, uşağın hər hansı bir fəaliyyətdə istismarı. Bu fəaliyyət uşağın fiziki və psixi sağlamlığına, təhsilinə, sosialemosional inkişafına zərər gətirir.

**Hərbi əməliyyatlarda iştirak etmək üçün orduya cəlb edilən uşaqlar da bu kateqoriyaya aiddirlər. Etinasızlıq** – qurbanın əsas ehtiyaclarının (qida, geyim, tibbi yardım, təhsil və s.) ödənilməsinə laqeyd münasibətdir. Bədbəxt hadisələrə, zəhərlənmələrə, həyat və sağlamlıq üçün digər təhlükəli

nəticələrə səbəb olan (məsələn, pedikulyoz, distrofiya və s.) uşaqları nəzarətsiz qoyma halları etinasızlığın tipik nümunəsidir.

**Sosial zorakılıq** – qurbanın təcavüzkar tərəfindən təcrid edilməsi zorakılığın gec aşkar olunmasının ən vacib səbəbidir. Bu, təcavüzkar tərəfindən qurbanın tədricən valideynləri, qohumları və dostlarından başlayaraq, bütün sosial çevrəsi ilə əlaqələrinin tamamilə kəsilməsində öz əksini tapır.

**Ailə zorakılığı** – ailənin bir üzvünün digər üzvünə qarşı qəsdən edilmiş hərəkəti, ailə üzvünün qanuni hüquqlarını və azadlıqlarını məhdudlaşdırırsa, ona fiziki və ya psixi-əzab verir və mənəvi ziyan yetirirsə, bu halda ailənin həddi-buluğa çatmamış üzvünün fiziki və şəxsi inkişafı üçün təhlükə yaranır.

**Məktəbdə zorakılıq** – Dünyanın bütün ölkələrində uşaqlar məktəbdə kifayət qədər çox vaxt keçirirlər. BMT-nin 2006-cı ilin uşaqlara qarşı zorakılıq haqqında məruzəsində oğlanlara nisbətən qızlara qarşı münasibətdə incitmə, əziyyət vermə, sıxışdırma daha çox qeyd edilir. Məktəblərdə baş verən zorakılıq hallarının 80%-i isə 12-16 yaş qrupunda baş verir. Hər 10 uşaqdan biri məktəbdə zorakılığa məruz qalır. Məktəblərdə fiziki cəzanın qadağan edilməsinə baxmayaraq incitmə, sataşma, qrup şəklində hücumlar geniş yayılıb. Adətən məktəbdə zorakılığa məruz qalmış uşaqlar təcavüzkardan qorxduqları üçün və məktəb müəllimləri və müdiriyyəti tərəfindən neqativ reaksiyalardan qorunmaq üçün belə hallar haqqında xəbər vermək istəmir və ya çəkinirlər. Məktəb müəllimləri və müdiriyyət zorakılıq probleminin və bədən cəzalarının mövcud olmasının gizlədilməsində mühüm rol oynaya bilərlər. Zorakılığın qurbanı istənilən hər bir uşaq ola bilər. Lakin əsasən

ya daha zəif və gücsüzü, ya da digərlərindən kəskin fərqləncəni (daha ağıllı, böyük və ya kiçik, ləhcə ilə danışan, bəzi hərflərin tələffüzündə çətinlik çəkən) seçirlər.

**Adətən məktəb zorakılığının qurbanı aşağıdakı qrup uşaqlar olurlar:**

♦ fiziki məhdudiyyətləri olanlar (eynəkli, eşitmə qabiliyyətində və hərəki problemləri olan);

♦ xüsusi davranışa malik olanlar (qapalı və ya impulsiv uşaqlar);

♦ xüsusi xarici görünüşə malik olanlar (kürən saçlı, çilli, əyri ayaqlı, kök və ya çox arıq, başın, qulaqların xüsusi forması);

♦ sosial bacarıqları inkişaf etməmiş uşaqlar;

♦ məktəb qorxusu olanlar;

♦ kollektivdə həyat təcrübəsi olmayanlar (ev uşaqları);

♦ xəstəliklər (epilepsiya, tiklər və hiperkinezlər, kəkələmə, enurez, danışma qabiliyyətinin pozulması və s.); ♦ intellektin aşağı olması və qavrama çətinlikləri.

**Məktəbdə rast gəlinən zorakılıq halları:**

- Ən çox rast gəlinən psixoloji zorakılıqdır: sözlə təhqir etmə, alçaltma, o cümlədən qorxutma, hədələmə. Uşağı digərləri ilə müqayisə edəndə, onun xarici görünüşünə rişxənd edəndə, lağa qoyanda, küncə qoyanda, həmçinin uşağın fikirlərinə kinayəli yanaşdıqda da şagird psixoloji zorakılığa məruz qalmış olur; • zorla, hədələməklə pul və əşyaların əlindən alınması;

- yuxarı sinif şagirdləri tərəfindən kiçik yaşlı uşaqların istismarı, işlədilməsi;

- məktəbdə döyülmə. Bura müəllimlərin uşağı vurması

(həmçinin, göstərici çubuqla), qulağını burması, sillə çəkməsi də aiddir;

- cinsi zorakılıq (məktəbin əməkdaşları, yuxarı sinif şagirdləri və s. tərəfindən).

**Müəllimlər və həmyaşlıları tərəfindən təhqir olunan uşaqların valideynlərinə tövsiyələr:**

- bu haqda vaxtında məlumat vermədiyinə və qarşısını almaq üçün heç bir tədbir görmədiyinə görə uşağı danlamayın; • uşaqla söhbət edib münasibətlərdə toqquşmanın, stressin, gərginliyin mənbəyini təyin edin;

- uşağı inandırın ki, onu başa düşürsüz və ona inanırsınız;

- sinif rəhbərinə və məktəbin müdiriyyətinə məlumat verin.

**Risk faktorları**: uşaqlara qarşı zorakılığın risk faktorları müəyyən edilmişdir: Qeyd etmək vacibdir ki, uşaq zorakılığın qurbanıdır və buna görə onu heç vaxt günahlandırmaq olmaz.

**Uşağın bəzi fərdi xüsusiyyətləri onun qurban olması ehtimalını artırır:**

Xüsusi yaş dövründə olanlar (4 yaşadək uşaqlar, yeniyetmələr), vaxtından əvvəl anadan olan, narahat və əsəbi, hiperaktiv və impulsiv davranışı ilə fərqlənən uşaqlar;

Arzuolunmayan və ya valideynlərin ümidlərini, etimadını doğrultmayan uşaqlar;

Xüsusi qayğıya ehtiyacları olan, ağlağan, fiziki və ya psixi qüsuru olan uşaqlar;

Əqli cəhətdən geri qalan uşaqlar arasında zorakılığa məruz qalanların faizi daha çoxdur və 20-40% təşkil edir.

**Valideynlər və ya tərbiyəçilərlə bağlı.** Uşaqlara qarşı zorakılıq törətmə ehtimalını valideyn və ya tərbiyəçilərin bəzi xüsusiyyətləri artırır. Onların arasında aşağıdakıları qeyd etmək olar:

Yenidoğulmuşla bağlı çətinliklər;

Uşağı nəzarətsiz qoyma, uşağa diqqət göstər;

Uşaqlıqda zorakılığa məruz qalma;

Uşağın inkişafı barədə biliklərin olmaması və ya uşaqdan qeyri-real gözləntilər;

Alkoqol və ya narkotik maddələrdən istifadə, o cümlədən hamiləlik dövründə;

Cinayətkarlıqda iştirak edənlər;

Maddi çətinliklər;

Çox cavan analar (18 yaşadək);

Fiziki cəzalandırmanı tərbiyə növü olduğunu düşünənlər;

Valideynlərin (və ya birinin) ruhi xəstəlikləri;

Ailədə emosional-psixoloji durumun pozulması (bir-birinə qarşı hörmətin olmaması, tez-tez mübahisələrin, qalmaqalların baş verməsi);

Stress vəziyyətində olmaları (yaxınlarının ölümü, ağır xəstəliyi, iqtisadi böhran və s.).

**Qarşılıqlı münasibətlərlə bağlı**

Ailədə və ya seksual partnyorlar, dostlar və həmyaşıdlar arasında qarşılıqlı münasibətlərdə xoşagəlməz hallar uşaqlara qarşı zorakılıq ehtimalını artıra bilər, məsələn: ailənin hər hansı bir üzvünün fiziki və ya psixi sağlamlığında problemlər; ailədə nizamsızlıq və ya digər ailə üzvlərinin arasında zorakılıq; ailənin digər üzvləri tərəfindən uşağın tərbiyəsində dəstəyin olmaması; uşağı himayəyə götürən ailələr.

**İcmalar və sosial faktorlarla bağlı.** Ayrı-ayrı icma və cəmiyyətlərdəki bəzi cəhətlər uşaqlara qarşı zorakılıq törətmə ehtimalını artırır. Bura aid etmək olar:

- gender və sosial bərabərsizlik;
- ailələrə dəstək üçün yararlı yaşayışın və ya xidmətlərin, habelə müvafiq qurumların olmaması;
- işsizliyin və yoxsulluğun yüksək səviyyəsi;
- alkoqol və narkotik maddələrə asanlıqla əlçatanlıq;

- digərlərinə qarşı zorakılığın törədilməsini alqışlayan və dəstəkləyən, bədən cəzalarına icazə verən, ailədə qadın və kişinin vəzifələrinin sərt ayrılmasını tələb edən, valideyn və övladlar arasındakı münasibətlərdə uşağın statusunu alçaldan sosial və mədəni normalar;
- qeyri-qənaətbəxş həyat standartlarına, sosial-iqtisadi bərabərsizliyə və ya qeyri-stabilliyə gətirən sosial, iqtisadi, tibbi-sanitar və təhsil strategiyalarının mövcudluğu;
- cəmiyyətdən təcrid olunma və ya dəstək dairəsinin olmaması. Zorakılığın qurbanı olan uşağın aşkarlanması uşaqla müraciət olunan bütün müəssisələrdə aparılmalıdır, o cümlədən kənd və şəhər məktəblərində, tibb müəssisələrində, ixtisaslaşdırılmış uşaq tibb müəssisələrində və regional polis bölmələrində. Tibb işçiləri uşaqlara qarşı kobud davranışın və qayğısızlığın erkən aşkarlanmasında əsas rol oynayırlar. Onlar çox vaxt valideynlərin uşaqla hansı münasibətdə olmalarının yeganə şahidi olurlar. Uşağa istənilən səbəbdən baxışın keçirilməsi (valideynlərin müraciəti zamanı, profilaktik baxış və s.) həkimdən müzakirə edilən problemə dair sayıq olmasını tələb edir, çünki hətta şikayətlər olmadıqda belə, zorakılığın ilk əlamətlərini görməyə real imkan yaranır. Baxış zamanı alınan bütün məlumatların tibbi kartaya qeyd olunması zəruridir, çünki bu məlumatlar məhkəmə zamanı əsas sübut kimi istifadə oluna bilər.

**Uşaq zorakılığına şübhə, uşaqlara qarşı zorakılıq halları aşağıdakı amillər əsasında şübhə yarada bilər:**

► Uşağın bədənində zədə izləri (qançırlar, açıq yaralar, yeni cızıqlar, yeni çapıqlar, yaralar, gəzməkdə çətinliklər, bədənin müxtəlif hissələrində şişkinliklər, sümükdə çatlar, sınıqlar);
► Uşağın şübhəli davranışı (uşaq narahat, məyus, qorxmuş, məktəbə getməyə həvəssiz olur, müntəzəm dərs buraxır, oxumağa istəyi yoxdur, evə getməyə həvəssiz olur, xasiyyətində kəskin dəyişikliklər nəzərə çarpır, bədənində əmələ gələn yaraların səbəblərini izah edə bilmir);

► Uşaqda baxımsızlıq əlamətləri. Baxımsız uşaqlar şəraitə uyğun olmayan nazik, cırıq və çirkli geyimdə ola bilərlər. Onlar baxımsız (saçlara, dırnaqlara, ayaqlara, dəri infeksiyalarına, dəridə bişmələrə, solğunluğa nəzər yetirmək) və pis qoxulu, yəni səliqəsizliyin qəbuledilməz vəziyyətində ola bilərlər. İnkişafın qiymətləndirilməsi ən ağır hallara aid ümumi geriləməni, ya da inkişaf edilməsi üçün böyüklərin diqqətini tələb edən nitq və ünsiyyət bacarıqlarının geriləməsini aşkarlaya bilər;

► Uşağın davranışında dəyişikliklər. Bir çox uşaqlar müayinə səbəbindən həddən artıq həyəcanlı olur, lakin onları sakitləşdirdikdə həkim müayinəsinə razılıq verirlər;

► Əgər zorakılıq halına şübhə varsa, şübhənin əsaslandırılmış olmasını təsdiq etmək üçün araşdırmalar aparılır. Uşağın bədənindəki zədələrin müayinəsi zamanı aşağıdakı əlavə faktorlar aşkarlandıqda şübhə əsaslandırılmış hesab olunur: Uşağın zorakılığa məruz qalması və ya məruz qalmaqda davam etməsi barədə öz ifadəsi. Zorakılıq halına şahidlik edən bir insanın ifadəsi. Müxtəlif mənbələrdən alınan məlumat.

► Validеynin qeyri-adekvat davranışları: zədələnmələrin ağırlıq dərəcələri ilə valideynin verdiyi izahatlar bir-birinə uyğun gəlmir və ya ziddir.  Valideyn daim uşağın ifadəsinin detallarını dəyişdirir, valideyn uşağın yaralarına qeyri-adekvat reaksiya verir, o, zədələri həqiqətdə olduğundan daha az ciddiliklə qiymətləndirir və öz şəxsi problemlərinə daha çox diqqət yönəldir, zədələrin səbəbləri ümumiyyətlə izah edilmir, zədələnmələrdə uşağın özünün günahı olduğunu deyir, tibbi yardım üçün gec müraciət olunur, tibb personalına qarşı səbəbsiz aqressivlik,  uşaqla davranışda emosional dəstəyin və məhəbbətin olmaması.  **Ehtimal olunan zorakılığın bilavasitə olan əlamətləri:** travmadan dərhal sonra yox, bir müddət keçdikdən sonra həkimə müraciət edilib; travma ilə bağlı valideynlərin izahları bir-birinə ziddir və həkimin gördüyü obyektiv şəkildən fərqlənir; zədələr çoxsaylıdır, onların əmələ gəlmə tarixi müxtəlifdir, spesifik xüsusiyyətləri var (barmaq, əşya izləri) eyni tipli travmalarla müxtəlif müəssisələrə təkrar müraciətlər zorakılığın digər əlamətləri (inkişafdan geri qalma, sanitargigiyenik baxımsızlıq, vaxtında müalicə edilməmə) zədələrin əsasən bayram və ya istirahət günlərindən sonra əmələ gəlməsi; Uşağın fizioloji reaktivliyi də onun emosional zorakılığa məruz qaldığına işarə edən əlamətlər: Oyunlara maraq göstərmir; psixosomatik şikayətlər: baş ağrıları, qarında, ürək nahiyəsində ağrılar, ümumi vəziyyətinin zəif olması, halsızlıq; inkişafdan (fiziki, psixi) geri qalma.

**Uşağa qarşı emosional zorakılığın tətbiq edilməsini ehtimal etməyə əsas verən ailə ilə bağlı faktorlar:**

əgər valideyn daim: uşağı çox sərt cəzalandırır, olduqca tənqidi yanaşır, günahlandırır, özünü qəzəbli və qorxuducu aparır: bir uşağın yanında digər uşaqlara və ya həyat yoldaşına qarşı zorakılıq tətbiq edir;

uşağın yanında onu qorxutmaq məqsədilə ev heyvanlarını incidir;
uşağın ehtiyacı olduqda ona təsəlli vermir, sakit etmir;

uşağı ətrafındakı insanlar qarşısında alçaldır, günahlandırır;

uşağı nifrət etdiyi və ya sevmədiyi qohuma oxşadır; öz

uğursuzluğunda uşağı günahlandırır; uşağı sevmədiyini və

nifrət etdiyini açıq etiraf edir.

## Zorakılığın qurbanı olan uşaqların vəziyyətlərinin qiymətləndirilməsi

Zorakılıq uşağa birbaşa və dolayı təsir göstərə bilər. Birbaşa təsir haqqında uşağın özünə qarşı zorakılığın tətbiq olunması hallarında danışılır, dolayı təsir haqqında uşağın yaxınlarına qarşı zorakılığın tətbiq olunması hallarında danışılır, yəni uşaq bu haqda eşidə bilər, zorakılığın şahidi ola bilər və ya zorakılıqla üzləşən ailənin üzvü ola bilər. Müayinə zamanı uşağın yanında onun güvəndiyi insanın olması çox vacibdir.

İlkin səviyyədə: Hamilələr, analar, yeni doğulmuş uşaqlar, azyaşlı uşaqlar və yeniyetmələrə göstərilən yardımın yaxşılaşdırılması; Arzuolunmayan hamiləliklərin sayının azaldılması; Hamiləlik zamanı alkoqol və narkotik maddələrin

istifadəsinin tam dayandırılması; Ailəyə dəstək, tibbi nəzarət; Uşaqlarla kobud rəftar və qayğısızlıq problemi barədə cəmiyyətin məlumatlandırılması (kütləvi informasiya vasitələri ilə); Aztəminatlı ailələrə dəstək verməyin, ictimai təşkilatlar tərəfindən yardım etməyin mümkünlüyü; Sosial baxımdan uğursuz ailələrin erkən aşkarlanması.

**Cəmiyyətdə uşaqlara qarşı kobud rəftarın qarşısını aşağıdakı yollarla almaq olar:**
Kiçik yaşlı uşaqları təhsilə hazırlayan müxtəlif məktəbəqədər inkişaf proqramları;
Uşaqlara həyat bacarıqlarını öyrədən təlimlər;

Kobud rəftarı yüksək ehtimal edilən qruplardan olan uşaqlara məktəb təhsilini bitirməyə köməyin göstərilməsi; Alkoqola, narkotik maddələrə əlçatanlığın azaldılması; Odlu silahlara əlçatanlığın azaldılması.

## Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə üsulları ilə bağlı kitabxanalarda bu mövzuda tədbirlərin təşkili

Ailədə uşağın şiddətə məruz qalması, ailədaxili zorakılıq, uşağa qarşı edilən aqressiv hərəkətlər gələcəkdə onun tərbiyəsində ciddi çatışmazlıqlar yaradır. Valideyn övladını kəşf edib öyrənmək əvəzinə, onun hər hansı adi hərəkətlərinə, davranışlarına dözə bilməyib onu təhqir edirsə, döyürsə, bu, körpənin aqressiv böyüməsinə və onda müəyyən psixoloji problemlərin yaranmasına gətirib çıxarır. Valideyn tərəfindən tez-tez döyülən uşaqlar natamam böyüyür, onların cəmiyyətə inteqrasiyasında problemlər yaranır. Belə uşaqlar sağlam ruhda böyümür, gələcəkdə özlərini bir şəxsiyyət kimi görmürlər.

Nəticədə, onlar cəmiyyətdə, ailədə rahat ünsiyyət qura, sağlam düşünə bilmirlər, yaşıdlarına qarşı aqressiv, kobud hərəkətlər nümayiş etdirirlər.

Tərbiyənin ən yaxşı yolu valideynin öz münasibətini mimikası ilə ifadə edə bilməsidir. Yəni övlad atasının və ya anasının üzünün ifadəsindən anlamalıdır ki, valideyni onun hansısa hərəkətindən narazı qalıb. Digər uğurlu yol isə uşağın öz valideynlərinin səs tonunu tanımasıdır. Onlara qışqırmaqla yox, səs tonunu bir az yüksəltməklə hərəkətinin səhv olduğunu bildirmək lazımdır. Uşağı döyərək tərbiyə etmək mümkün deyil. Döyülmək onda anaya, ataya qarşı nifrət yaradır. Yəni o, döyüldüyü üçün özünü günahkar saymır, əksinə, onu döyənə qarşı içində kin bəsləyir.

Psixologiyada "mükafat və cəza" adlı tərbiyə metodu da var. Burada mükafatlandırma dedikdə uşaqların bacarıqlarını və gözəl əməllərini qabardıb onları tərifləmək və ya onları sevindirəcək kiçik bir hədiyyə etmək nəzərdə tutulur. Bu, uşaqların xoşladığı şirniyyat, kiçik gəzinti və s. ola bilər. Onları pul və başqa qiymətli şeylərlə mükafatlandırmaq olmaz. Cəza dedikdə isə qətiyyən fiziki təzyiqdən söhbət getmir. Uşaq nə qədər fiziki təzyiq görsə, o qədər tərs olur və deyilən sözün əksini edir. Yalnız onun öyrəşdiyi, xoşladığı şeylərə qısamüddətli qadağa qoymaqla cəza vermək olar. Məsələn, valideyn əvvəldən xəbərdarlıq etməlidir ki, bu cür davransan, səni bir günlük cizgi filminə baxmaqdan və ya bazar günü gəzintisindən məhrum edəcəyəm. Bu zaman ən önəmli məsələ valideynin verdiyi sözə əməl etməsidir. Əks halda, uşaqda valideynə inam itər və gələcəkdə onun heç bir sözünü dinləməz.

Ümumiyyətlə, valideynlər övladlarına kifayət qədər zaman ayırmalı, diqqət, qayğı göstərməlidirlər. Nəzərə almalıyıq ki,

düzgün tərbiyə edilməyən uşaq gələcəkdə həm öz ailəsi, həm də cəmiyyət üçün problemə çevrilir.

**Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə üsulları sahəsində kitabxanaların rolu böyükdür.** Kitabxanada uşaq və yeniyetmələrin hüquqlarının təbliğinə dair hər hansı tədbirlərin maraqlı və canlı olmasına xüsusi diqqət yetirilir. Qeyd etmək lazımdır ki, respublikamızın ümumtəhsil məktəblərində hüquq elminin bir fənn kimi öyrənilməsi ilə yanaşı hüquq biliklərinin təbliğini və hüquq tərbiyə işinin genişləndirmək məqsədi ilə şəhər, rayon və məktəb kitabxanaları təbliğat işləri aparmalıdır. Belə ki, hüquq məsələlərinə dair mühazirələr, viktorinalar, söhbətlər, ədliyyə, məhkəmə, polis, prokurorluq işçiləri ilə görüşlər təşkil edilməli, hüquq mövzusunda konfranslar keçirilməlidir. Bu mövzuda kitabxanada kinofilmlərə, teatr zallarında uşaqlarla teatr tamaşalarına kütləvi baxış keçirilməsi məsləhətdir. Məlumdur ki, kitab müzakirələri və oxucu konfransları bu mövzuda böyük əhəmiyyətə malikdir. Bunlar məktəbli oxucuların formalaşmasına, əxlaq tərbiyəsinə böyük təsir göstərir. Məhz buna görə də kitabxanalarda uşaq və yeniyetmələrə qarşı zorakılıq hallarına qarşı mübarizə mövzusunda, hüquqi mövzuda, cinayətkarlıqla mübarizə mövzularında bu kimi tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirilir.

Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması məqsədilə kitabxanalarımızda gənclərimizin xüsusi maraq və meyillərinin aşkar edilməsini nəzərdə tutan müəyyən tədbirlər təşkil etməkdir. Həmin tədbirlər aşağıdakı problemləri əhatə etməlidir:

1. Gənclərin təşəbbüslərinin dəstəklənməsi;
2. Gənclərin asudə vaxtının səmərəli təşkil olunması;
3. Gənclərə vətənpərvəlik hissinin aşılanması;
4. Gənclərin sağlamlığının qorunması məqsədilə onların zərərli vərdişlərdən uzaqlaşdırılması üçün tədbirlərin görülməsi;
5. Yaradıcı gənclərin üzə çıxardılması.

Müasir dövrdə kitabxanalarda gənclərin bir sıra problemlərinin aradan qaldırılması üçün müvafiq tədbirlər görülməlidir. Belə ki, bir sıra problemlərlə əlaqədar kitabxanalarımızda aksiyaların, gənclərlə görüşlərin və müəyyən tədbir planlarının həyata keçirilməsi məqsədə müvafiq olardı:

1. Müəyyən səbəblərdən gənclərin təhsildən yayınmasının qarşısını almaq və onlarda təhsilə maraq artırmaq məqsədilə onlarla görüşlərin keçirilməsi;
2. Qaçqın və məcburi köçkün gənclər üçün müasir informasiya kommunikasiya texnologiyalarına həsr olunmuş təlim proqramının təşkili və internet aksiyalarının keçirilməsi;
3. Gənclərin sağlamlığının qorunması haqqında geniş maarifçilik işi aparmaq;
4. Gənclərimizi ziyanlı vərdişlərdən (narkotik, alkoqol, popiros) yayındırmaq məqsədilə aksiyaların təşkili;
5. Gənclərin mütaliəsinin düzgün istiqamətləndirilməsi məqsədilə kitabxanalarda xüsusi proqramların təşkil edilməsi, informasiya və məsləhət xidmətinin həyata keçirilməsi.

Gəncləri maarifləndirmək üçün, kitabxanaçılar onları aşağıdakı müəyyən qruplara ayıraraq öz işlərini istiqamətləndirə bilərlər. Bu məqsədlə yüksək intellektli və yaradıcılıq

qabiliyyətli gəncləri aşkarlayıb onlarla iş aparmaq olar. Xüsusi qabiliyyətli gənclərin əsas fərqləndirici xüsusiyyəti ondadır ki, onların düşünmə tərzi heç kimə oxşar olmayan, qeyri-standart və orijinal olur. Xüsusi qabiliyyətli gənclər, bir qayda olaraq, güclü yumor hissi ilə də fərqlənir və geniş müşahidə qabiliyyətinə malik olurlar. Bunu nəzərə alaraq kitabxanaların nəzdində gənclər üçün *"Şən və hazırcavablar"* klubu təşkil etmək olar. Gənclərimizin intellektual səviyyələrinin yüksəldilməsi, onların dünyagörüşünün artırılması əsas məsələlərdən biridir. Əgər onların intelektual səviyyəsi yüksək olarsa, pis vərdişlərdən kənar gəzərlər. Gənc oxucularımızın ideya və maraqlarını öyrənmək məqsədilə dəyirmi masanın keçirilməsi məqsədə uyğundur. Gənclərin həyatının yaxşılaşdırılmasında mühüm rolu olan gənclər təşkilatlarının nümayəndələri tədbirə dəvət olunur. Tədbir zamanı gənclər və təşkilat nümayəndələri məruzə edirlər. Gənclərimizin öz ideyaları, gələcək planları barədə çıxışları dinlənilir. Hər bir gənci narahat edən problemlər dinlənildikdən sonra əlaqədar təşkilat üzvləri tərəfindən onların suallarına açıqlıq gətirilir. Gəlin sabahımız olan uşaqları bu gün qoruyaq, onların bizim sevgimizə ehtiyacı var…

Düzgün tərbiyə, yaşlıların yaxşı nümunəsi yeniyetməni güclü, mənəvi cəhətdən möhkəm, xeyirxah edir. Tərbiyəsizlik və yaxud pis tərbiyə, yaşlıların pis nümunəsi yetkinlik yaşına çatmayanlarda mənfi hisslərin yaranmasına səbəb olur. Yetkinlik yaşına çatmayanların tərbiyəsi cəmiyyətin əsas vəzifələrindəndir. Müasir dövrdə bu işdə kitabxanaçı əməyini də qeyd etmək yerinə düşər. Ümumiyyətlə, yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığa qarşı mübarizə məqsədilə keçirilən



tədbirlərdə N. Tusinin "Əxlaqi-Nasir" kitabı əsasında söhbətlərin, oxucu konfranslarının, müzakirələrin keçirilməsi yerinə düşərdi. Oxucularla kitab müzakirələri zamanı kitabxanaçı əməyi əsas yer tutur. Bədii ədəbiyyatda sözün kəsərinin nəzərə alınması kitabxana işçisinin işində əsas meyar olmalıdır. Oxucular arasında *"Azərbaycan ədəbiyyatında sərxoşluq əleyhinə mübarizə motivləri", "Azərbaycan detektiv ədəbiyyatı", Ç. Abdullayevin "Göy mələklər", E. Elatlının "Görünməyən izlər", X. Əlizadənin "Zəncir", A. Əliyevin "Cəhənnəmə gedən yol", İ. Qarayevin "Məni tanıdınmı" "Cəmşid Əmirovun romanlari*" və s. əsərlərin müzakirəsini keçirmək məqsədəuyğundur. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması məqsədilə kitabxanalarla yanaşı mətbuat, radio və televiziyalar da, təbliğat işləri ilə məşğul olmalıdır. Çünki bu problem elə bir dəhşətli problemdir ki, ona qarşı mübarizədə bütün vasitələrdən istifadə etməliyik. Xüsusən azyaşlıları və yetkinlik yaşına çatmayan uşaqlara kömək məqsədilə bu işi daha da gücləndirməliyik. Sağlam zəkaya, fiziki qüvvəyə malik olan Azərbaycan xalqı bu ölkənin yeganə varisidir. Azərbaycan Respublikasının Beynəlxalq aləmə çıxması, onun nüfuzlu Beynəlxalq məclislərdə təmsil olunması xalqımızda soy-kökünə qayıdış, milli qürur və milli şüurun formalaşmasına, milli ləyaqətin tərbiyə edilməsinə ciddi zəmin və şərait yaratmışdır. Azərbaycan xalqı, onun ziyalısı, fəhləsi, kəndlisi, məktəblisi, milli kökü, tarixi, ədəbiyyatı haqqında, özünün tarixi köklərini dərindən dərk etməyə çalışır. Hər bir məktəblidə milli mənlik şüurunun formalaşdırılması onun cəmiyyətdə, ictimai münasibətlərin bütün sistemində tutduğu və oynadığı rolu müəyyənləşdirir, onun mənəvi keyfiyyətlərinin qabarıq ifadəsinə çevirir. Maddi və mənəvi zəmində tərbiyə

olunan məktəbli özünün, xalqının varlığını dərk edir, torpaq, Vətən, xalq, millət kimi böyük arzular və müqəddəs amallar dünyasına daxil olur. Bu çox mürəkkəb prosesdə onun mənəviyyatı, əqidəsi, dünyagörüşü formalaşır. Məktəbli dərindən-dərinə dərk edir ki, əzəmətli ağaclar öz kökləri üzərində dayandığı kimi hər bir şəxs də öz xalqı, öz milləti içərisində təşəkkül tapır, öz xalqına, öz millətinə xidmət edir. Milli şüur formalaşdıqca məktəblidə milli ləyaqət tərbiyə olunur. Məktəbli oxucu belə bir həqiqəti dərk edir ki, millət və xalqın, Vətənin, doğma yurdun taleyi onun taleyinə qovuşur, şəxsi ideal və arzuların tərkib hissəsinə çevrilir.

Böyüməkdə olan nəslin milli şüurunun və milli ləyaqətinin tərbiyə edilməsində, mədəniyyətimizin, tariximizin, ədəbiyyatımızın onlara düzgün öyrədilməsində kitabxanaçılarımızın, xüsusilə uşaq kitabxanaçılarının qarşısında mühüm vəzifələr dayanır. Bu məqsədlə kitabxanaçılar məktəbli oxucuları dərsliklərdən kənara çıxararaq digər bədii nümunələrlə tanış etməli və onları həmin əsərləri oxuyub nəticə çıxarmağa istiqamətləndirməlidirlər. Məktəblilərdə milli şüuru formalaşdıran imkanlar daha geniş və əhatəlidir. Bu imkanlar sırasında müəllim şəxsiyyəti, dərsliklər, informasiya vasitələri xüsusilə də mənəvi xəzinəmiz olan kitabxanalar mühüm rol oynayır. Məktəbli oxucuların həyatın fəal mübarizləri kimi pak və səmimi duyğularla Vətənə, xalqa bağlılıq ruhunda ləyaqətli vətəndaş kimi tərbiyə edilməsi üçün müəllimlərlə yanaşı kitabxanaçılar da sinifdənxaric tədbirlərdə dərs prosesini sıx şəkildə əlaqələndirməli və bu əlaqələri bacarıqla hisslərin, duyğuların əməli tərbiyəsinə yönəltməyə çalışmalıdırlar. Ölkəmizdə bir sıra intellektual gənclər klubları fəaliyyət göstərməkdədir. Təəssüflər olsun ki,

hər bir gənc bu cür klublara maraq göstərmir. Yaxşı olardı ki, kitabxanalarda da intellektual klublar təşkil olunsun və vaxtaşırı həmin klubların yarışları təşkil olunsun.

Bu kimi klubların kitabxanalarda da təşkili oxucularımızın intellektual səviyyələrinin yüksəldilməsinə yardımçı olar.

Gənclərin fikir və düşüncələrini öyrənmək üçün onlar arasında müsahibənin keçirilməsi məqsədə uyğundur. Onu da deyək ki, müsahibə oxucuları öyrənməyin ən yaxşı üsullarındandır. Müsahibənin ali təhsil və orta məktəb kitabxanalarına müraciət edən tələbələr arasında keçirmək daha yaxşı olar. Yeniyetmələr bir çox hallarda problemini çözmək üçün içki, siqareti çıxış yolu seçirlər. Bunun qarşısını almaq üçün kitabxanada *"Öz həyatını zəhərləmə, yaşamaq üçün hə de", "Həyatını məhv etmə", "Həyatı sev və insan kimi yaşa", "Mütaliə edək"* kimi şüarların yer aldığı slayd-şou hazırlamaq olar. Sonda məktəblilər arasında mövzu ilə bağlı sual-cavab yarışı keçirmək olar. Yaxşı olar ki, mövzunu daha yaxşı anlayan və onu ifadə edənlərə kitabxana tərəfindən hədiyyələr təqdim olunsun.

**Uşaqlar: Azərbaycanın bu günü və gələcəyi**

Uşaq hüquqlarının müdafiəsi problemi həmişə ictimaiyyəti maraqlandıran bir məsələ olmuşdur. Dünyanın bir sıra ölkələrində bu məsələ ilə ciddi məşğul olunur. Azərbaycanda da uşaq hüquqlarının müdafiəsi ilə bağlı mühüm addımlar atılmış, bir sıra qərar və qanunlar qəbul edilmişdir. İctimaiyyəti bu cəhətdən maarifləndirmək, onları öz hüquqları barədə məlumatlandırmaq kitabxanaların üzərinə düşən mühüm vəzifələrdən biridir. Bu sahədə F. Köçərli adına Respublika Uşaq Kitabxanasının xidmətləri əvəzsizdir. Belə ki, kitabxanamızda keçirilən bir sıra tədbirlər uşaqların,

yeniyetmələrin, hətta valideynlərin hüquqi cəhətdən maariflənməsinə kömək edir.

Kitabxanalarda kiçik yaşlı uşaqlar üçün keçirilən tədbirlərdən biri "Ucadan oxu"dur. Bu tədbir hər zaman oxucularda böyük maraq doğurur. Cəlil Məmmədquluzadənin uşaq hüquqlarından bəhs edən *"Qız tərbiyəsi", "Uşaq teatrı"* əsərlərinin ucadan oxunması oxucular üçün maraqlı ola bilər. Bildiyimiz kimi bu əsərlərdə qeyd olunan uşaq hüquqları ilə bağlı problemlər müasir dövrlə də ayaqlaşır.

Uşaqların öz hüquqlarını yaxşı öyrənmələrinə nail olmaq üçün məktəblilər arasında *"Mən öz hüquqlarımı yaxşı bilirəm"* mövzusunda inşa müsabiqəsinin keçirilməsi uşaq və yeniyetmələrdə zorakılıq hallarının qarşısının alınması mövzusunda yaxşı nəticələr verə bilər. Mövzunu işləyərkən uşaqlar müvafiq ədəbiyyatı oxumalı, internetdən lazımi informasiyanı almış olacaqlar. Bu da istər-istəməz onların öz hüquqları ilə bağlı məlumatlanmasına səbəb olacaq. Nəticələr yoxlanıldıqdan sonra ilk üç yerin sahibi mükafatlandırılarsa bu uşaqların öz hüquqlarını öyrənmək həvəsini daha da artırar. Eyni adda rəsm müsabiqəsinin keçirilməsi də yaxşı nəticələr verər.

Məktəblərdə valideynlərlə görüşün təşkil edilməsi də bu sahədə böyük irəliləyişlərə səbəb olar. Respublika Konstitusiyasının tələblərinə müvafiq olaraq valideynlər uşaqların və onların fiziki əqli inkişafının qayğısına qalmağa və onları vətənin layiqli vətəndaşı kimi böyütməyə borcludurlar. Valideynlər öz hüquq və vəzifələrini uşaqlarına aşılamalı və onları düzgün istiqamətləndirməlidirlər.

Məktəblilərlə "Siz öz hüquqlarınızı bilirsinizmi?" adlı disputun keçirilməsi yaxşı nəticələrə gətirib çıxarar. Belə ki, uşaqlarla bu haqda söhbətin aparılması onların öz hüquqları

haqqında olan məlumatını artırar. Tədbirə hər hansı bir uşaq hüquqları təşkilatının nümayəndəsini dəvət edərək uşaqları maraqlandıran sualların cavablandırılmasına şərait yaratmaq da məqsədə uyğundur. Uşaqlarla onların hüquqlarından danışarkən slaydlardan istifadə olunması, onların öz hüquqlarını daha yaxşı başa düşmələrinə yardımçı olar. Ancaq uşaqlar bəzən öz fikirlərini səsləndirməkdən çəkinirlər. Bu problemi aradan qaldırmaq üçün uşaq hüquqları ilə bağlı saytlar da fəaliyyət göstərir. Bu saytlara misal olaraq www.ombudsman.gov.az, www. osce.org, www.crlc.az, www.humanrights-az.org, www.ngoalliance.net, www unicef.org/Azerbaijan və s. kimi saytları göstərmək olar. Bildiyimiz kimi bir çox uşaq bəzi hallarda müdafiə oluna bilmədiyi üçün onların hüquqları pozulur. Bu məqsədlə kitabxanaçıların uşaqlara müəyyən məsləhətlər verməsi, onları bu cəhətdən maarifləndirmələri gələcəkdə müsbət nəticələr verə bilər. Uşaqların bəzi pis vərdişlərə (popiros çəkmək, spirtli içkilərdən istifadə) yiyələnməsi onların gələcək həyatını tamamilə məhv edə bilər. Bu məqsədlə kitabxanaçılar popiros, alkoqolun mənfi cəhətlərindən uşaqları məlumatlandırsalar bu uşaqların belə vərdişlərdən uzaq olmalarına kömək edər.

Gənclərdə maarifləndirməni gücləndirmək məqsədilə onların yazıçı və şairlərlə kitabxanalarda görüşünün təşkili yaxşı nəticələr verər. F. Köçərli adına kitabxana öz iş təcrübəsində bu metoddan geniş istifadə etməkdədir. Belə ki, bu cür görüşlər gənclərin savadını, dünyagörüşünü artırır, onları pis vərdişlərdən kənarlaşdırırlar. Bundan əlavə fikir mübadiləsinin aparılması gənclərə öz fikir və düşüncələrini daha yaxşı ifadə etməyə imkan verir. Bu da gələcəkdə azad fikirli cəmiyyətin formalaşmasında mühüm rol oynayar. Uşaq və gəncləri mütəmadi olaraq

kitabxanaya yeni daxil olan kitablar barədə məlumatlandırmaq lazımdır. Bu məqsədlə gənc oxucularımız üçün müasir yazıçılarımızın kitablarından ibarət sərgilər təşkil etmək olar. Sərgidə *N. Məmmədlinin "Bu bir oyundur", "Zəngulə", "Vicdan dustağı", Elxan Elatlının "Pəncərədə görünən kölgə", "Cəhənnəmdən gələn səs", "Xəyanət", "Bakıdan gələn xəfiyyə", "Qan ləkəsi", "İtmiş qızın axtarışı", " Yeddinci mərtəbədə qətl", Pərvizin "Yad dildə", Varisin "Sonuncu ölən ümidlər", "Bir ovuc torpaq" "Görünməyən izlər", Çingiz Abdullayevin "Onun qəlbinin üçdə bir hissəsi", "Veneranın ikinci dəfə həyata gəlməsi", "Kandaqordan agent", "Paralel həyat"* kitabarını nümayiş etdirmək olar. Məsələn: Kitabxanada sevilən yazıçı *Elxan Elatlının "Görünməyən izlər"* kitabının icmalının keçirilməsi gənclərimizi bu mövzu ilə bağlı maarifləndirmək üçün məqsədəuyğundur. Yazıçı əsərlərini detektiv üslubda yazır. Əsərin əsas qəhrəmanı Qambay Qasımlıdır. Romanda Humayla onun tanışlığından bəhs edilir. Əsərdə bu günümüzün gəncliyi üçün olduqca əhəmiyyətlidir. Belə ki, yazıçı əsərdə narkotikin insan həyatını necə məhv etdiyini olduqca aydın şəkildə əks etdirir. Elə bu səbəbdən də əsər gənclərimiz üçün əhəmiyyətə malikdir. Kitab 2010-cu ildə Bakıda "İdeal-print" nəşriyyatında çap olunmuş və oxucuların ixtiyarına verilmişdir.

Və yaxud da, müasir dövr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Nüşabə Məmmədlinin ***"Vicdan dustağı"*** kitabı. Kitab 2010-cu ildə "Çinar-Çap" nəşriyyatı tərəfindən çap olunmuşdur. Kitabın icmalının təşkili gənc oxucularda ona qarşı maraq yaradır. Roman onu oxuyan hər bir gənci öz həyatını, atacağı addımları bir daha düşünməyə vadar edir. Belə ki, tərbiyəvi mövzuda yazılan əsər müasir

gəncliyimiz üçün olduqca əhəmiyyətlidir. Əsər gənclərə bir sıra insani keyfiyyətləri aşılamaq cəhətdən olduqca əhəmiyyətlidir. Romanın əsas qəhrəmanı Səltənətdir. Onun həyatında baş verən çətinliklər gənclər üçün təhsilin nə qədər vacib olduğunu bir daha sübut edir. Yazıçı romanda erməni millətinə xas murdar xüsusiyyətləri böyük məharətlə təsvir etmişdir. Roman gənclərimizi mübariz olmağa, vətəni, ailəni sevməyə, təhsil almağa səsləyir. Əsər gənclərimiz üçün böyük tərbiyəvi əhəmiyyətə malikdir.

**Sağlam həyat tərzi keçirək**

**Mütaliə edək**



Kitabxanalarda gənclərimizi fəaliyyətdə olan gənclər təşkilatları haqqında məlumatlandırmaq lazımdır. Belə ki, hazırda ölkəmizdə 170 gənclər təşkilatı fəaliyyət göstərməkdədir. Bu təşkilatların fəaliyyətindən, gördükləri işlərdən gənc oxucuları xəbərdar etmək üçün həmin təşkilatların nümayəndələri ilə gəncləri görüşdürmək mümükündür. Beləcə gənclər onları maraqlandıran suallara cavab tapa bilərlər.

Məktəblərdə valideynlərlə görüşün təşkil edilməsi də bu sahədə böyük irəliləyişlərə səbəb olar. Valideynlər uşaqların və onların fiziki əqli inkişafının qayğısına qalmağa və onları vətənin layiqli vətəndaşı kimi böyütməyə borcludurlar. Valideynlər öz hüquq və vəzifələrini uşaqlarına aşılamalı və onları düzgün istiqamətləndirməlidirlər.



**Kitabxanada Sülh aylığı çərçivəsində uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə üsulları ilə bağlı "Sual-cavab gecəsi"** keçirərkən əvvəl mövzunun mahiyyətini, əhəmiyyətini açan kitablar seçilməli, qoyulacaq suallar əvvəlcədən müəyyənləşdirilməlidir. Tədbirin məktəblilər arasında keçirilməsi daha məqsədəuyğun olardı. Sorğu keçirilərkən uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Sualların qabaqcadan müəyyənləşdirilməsinə baxmayaraq, tədbir zamanı yeni sualların meydana çıxması istisna edilmir. Tədbirdə iştirakçıların suallarını yazılı şəkildə vermələrinə də şərait yaradılmalıdır. Bu onlara sıxılmayaraq maraqlandıqları suallara ətraflı cavab tapmalarına imkan verər. Qoyulan sualların əhatəli şəkildə işıqlandırılmasını, müzakirəsini, cavablandırılmasını təmin etmək üçün hüquq-mühafizə orqanlarının əməkdaşlarını, səhiyyə işçilərini, müəllim kollektivini, valideyn heyətini də tədbirə dəvət etmək çox yerinə düşərdi. Həmçinin verilən suallara daha ətraflı cavab vermək üçün sual-cavab gecələrində əyani materiallardan, fotomontajlardan, kitab vitrin və sərgilərindən istifadə etmək,

mövzu ilə bağlı ədəbiyyatları dinləyicilərə tövsiyə etmək çox vacibdir. "Narkomaniya, gəncliyimiz və ondan törənən fəsadlar" mövzusunda keçirilən sual-cavab gecəsində aşağıdakı suallar ətrafında müzakirə aparmaq olar. Müsahibə zamanı təqdim oluacaq sualları sizə təqdim edirik.

1. Özünüzü təqdim edin. Harda təhsil alırsınız?
2. Tez-tezmi kitabxanalara müraciət edirsiniz?
3. Hansı janrda olan ədəbiyyata daha çox üstünlük verirsiniz?
4. İnsan alverinə, uşaq və yeniyetmələrə qarşı zorakılıq mövzusuna əsərlərində müraciət edən yazıçılardan kimləri tanıyırsınız?
5. Siz gənc olmağın üstünlüyünü nədə görürsünüz?
6. Sizin fikrinizcə gələcəyimiz olan uşaqları bu bəladan necə qorumalıyıq?
7. Siz və təhsil aldığınız müəssisə uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə mövzusunda nə kimi işlər görmüsünüz?
8. Sizcə təhsil gənclərimiz üçün nə dərəcədə önəmlidir?
9. Sizcə Azərbaycan gəncliyi nəyə qadirdir?
10. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə mövzusunda Azərbaycan gənclərinə nə tövsiyə edərdiniz?
11. Azərbaycanımızı necə görmək istərdiniz?
12. Asudə vaxtlarınızı necə keçirirsiniz?
13. Sizcə bizim gənclərin əsas problemləri nədən ibarətdir?

14. Ən çox sevdiyiniz məşğuliyyət nədir?
15. Özünüzü hazırki cəmiyyətdə hansı mövqedə görürsünüz?
16. Bəs gələcəkdə hansı mövqedə olmaq istərdiniz?
17. Siz gələcəkdə öz ixtisasınız üzrə mütəxəssis ola biləcəksinizmi?
18. Gəncləri cinayətə, pis vərdişlərə sövq edən nədir?
19. Siz gələcəyinizi necə görmək istərdiniz?
20. Sizin fikrinizcə pis vərdişlərdən qorunmaq üçün gənclərimiz nə etməlidir?

**Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə üsulları ilə bağlı tədbirin ssenarisi**



***Səhnəyə Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə üsullarını əks etdirən rəsmlər qoyulur.***

**Kitabxanaçı:** Yaşayıb yaratmaq, xalqın maddi və mənəvi sərvətlərini artırmaq, namuslu zəhmətinin bəhrəsini nəsillərə yadigar qoymaq – nəcib insan arzusu, şərəfli insan duyğusu, adi insan borcudur. Yer üzündə həyatı gündən-günə, ildən-ilə gözəlləşdirən, böyük səadət, böyük sevinc, saf məhəbbət kimi həyat nemətlərini yaradan elə insanın özüdür. Bu sevinc ayrı-ayrı insanların sevinc və səadəti ilə həmahəng olsa, bir o

qədər mənalı, uzunömürlü və dərin olur. İnsan səadətinə düşmən olanlar bəxtiyarlığı ancaq hər cür gözəllik və nəcabətdən uzaq olan heyvani nəşələrində görənlər, insan nəslinin ən eybəcərləşmiş, insan, sima və xasiyyətlərini itirmiş bir zümrəsidir. Böyük bir insan adını ləkələyən belə insanlar dünyanı yeni müharibələrlə qanlı dalğalarda çalxalamaq istəyirlər. Onlar milyonların həyatı bahasına mənfəət, qan bahasına mənfəət, göz yaşları, iniltilər iztirablar, fəryad, səfalət sərgərdanlıq bahasına mənfəət, gəlir qazanc istəyirlər. Onlar insan səadətinə düşmən, insan sevincinə yad, gözəl insan arzusunun amansız yağısıdırlar.

Bu gün balalarımızın səadət, işıq və sevinc dolu dünyasını vətənimizin hər yerində hiss edən prezidentimiz dünyada sülhün qorunması üçün daha da mətanət, fədakarlıq və böyük qüvvə ilə çalışır.

**Aparıcı:** Azərbaycan gəncliyi müstəqil respublikamız üçün böyük nailiyyətlər qazanmaq iqtidarına malikdir. Bəs bu məqsədlərə çatmaq üçün biz gənclər nə etməliyik?

**Aparıcı:** Bildiyimiz kimi inkişafa gedən yol ilk növbədə təhsildən keçir. Elə bu səbəbdən də hamınız təhsilinizə, savadınızı artırmağa xüsusi diqqətlə yanaşmalısınız. Dostlar, çalışın daima intellektual səviyyənizi, savadınızı inkişaf etdirin, pis vərdişlərdən kənar olun. Çünki vətənimizə laiqli bir vətəndaş kimi yetişmək üçün təhsil önəmli şərtlərdən biridir.

**Aparıcı:** Dostlar, unutmayın ki, siz artıq cəmiyyətin yetkin üzvüsünüz. Hər addımı atmazdan öncə hərtərəfli düşünün, ziyanlı vərdişlərdən uzaq olmağa çalışın. Heç bilirsinizmi ki, bu kimi vərdişlər insanın gələcək həyatında necə dərin yaralar aça bilər? Elə bu səbəbdən də popiros çəkmək, içki içmək, narkotikdən istifadə etmək kimi pis vərdişlərdən uzaq olun.

Buna nail olmaq üçünsə ilk növbədə ətrafınıza yaxşı dostlar toplayın.

**Aparıcı:** Unutmayın ki, dostluq bütün hisslərin, bütün münasibətlərin ən ülvisi, ən əvəzolunmazı və ən önəmlisidir. Dostluq olmadan sevgi olmaz, dostluq olmadan heç bir münasibət baş tutmaz, dostluq olmadan inam, dəyər və səmimiyyət olmaz. Atalarımız əbəs yerə deməyiblər ki, "Dostunu mənə göstər sənə kim olduğunu deyim." Odur ki, özünüzə yaxşı dostlar qazanın və özünüz də yaxşı dost olmağa çalışın! Gəlin unutmayaq ki, dostluq təkcə insanların şəxsi münasibəti olmaqla qalmır, bu zamanla cəmiyyətdə münasibətlərin yaxşılaşmasına, qonşu dövlətlərlə əlaqələrin möhkəmləndirilməsinə gətirib çıxarır.

*(Oxucu: Elmir Gəncəlinin "Dostluq" şeirini söyləyir. )*

Bir gecə qələmi əlimə aldım
Düşündüm dostluqda səhv etmişəm mən?
İlk öncə yadıma mən səni saldım
Gördüm xoş xatirələri məhv etmişəm mən !

Yadımda qalmısan pis fikirlərlə
Hər zaman dostuna demisən yalan
Dar gündə sən məni vermisən ələ
Əsl dost dostuna can verər qurban

Heç kimə dost sözün demirəm indi
O qədər yalançı dostlar görmüşəm
Dost dedim çevrildim bir də gördüm ki,
Artıq üzü üstə yerə düşmüşəm...

**Aparıcı:** Bəli, hər bir insan öz hüquq və vəzifələrini bilməlidir ki, onu qoruya bilsin. Çünki hüquq və vəzifələr yer kürəsində yaşından, irqindən və milliyyətindən asılı olmayaraq hamıya aiddir. Eləcədə yer üzərində yaşayan və dünyanın zinəti adlandırılan biz uşaqların. Dünyada Uşaq  hüquqları var və bu hüquqlar hər hansı bir ailə, dövlət və cəmiyyət tərəfindən qorunur. Ancaq çox təəssüf ki, bəzən elə hallar olur ki, bu hüquqlar pozulur. Bəs niyə uşaq hüquqları pozulur və nə üçün buna yol verilir? Çox təəssüf ki, bəzən uşaqlar təhsildən yayındırılır və icbari işə yönləndirilir. Bu gün dünyada baş verən müharibələr də, onun fəsadlarıda usşaqların sağlam yaşamaq hüquqlarını əlindən alır.
**Aparıcı:** Uşaqların təhqir olunması,onların zorakılığa məruz qalması kimi hallar da baş verir ki, məhz belə hallarda hər bir uıaq öz hüquqlarını bilməlidir ki, müdafiə oluna bilsin. Uşaq hüquqlarının pozulması halları çox təəssüf ki, ilk olaraq ailədən başlanır. Ailə isə hər bir uşağın fərd kimi formalaşmasında əsasdır. Hər bir uşağın isti bir yuvaya, xoş bir təmasa ehtiyacı var. Uşaq hüquqları ailə daxilində zorakılıq və uşaqlar arasında ayrı-seçkilik olduqda da pozulur. Uşaqlar öz dövlətinin qarşısındakı bir nömrəli məsələ olmalıdır. Dövlət uşaqların hüquqlarının pozulmasına yol açan səbəbləri daim izləməli, aradan qaldırmalıdır. Çünki sağlam gələcək sağlam gəngliyin çiyinləri üzərində dayanır.!
**Aparıcı:** Gənclər, siz hər zaman vətənimizin xidmətində durmalı, onun gələcək inkişafında yaxından iştirak etməlisiniz. Unutmayaq ki, vətənimizi yadellilərdən qorumaq kimi mühüm bir vəzifə də biz  gənclərin üzərinə düşür. Belə ki, hər bir oğlan hərbi xidmətini yerinə yetirməklə vətən qarşısında öz borcunu yerinə yetirməlidir. Vətənə məhəbbət, anaya, xalqa, ailəyə olan

məhəbbət deməkdir. Bunun üçün sağlam olmaq, sağlam ruhda böyümək lazımdır.

*(Oxucu Mirvarid Dilbazinin "Vətən oğulsuz olmasın" şeirini söyləyir. )*

İgid oğul istəyir
Vətən hər dar günündə
Şücaətlə dayansın
Mərdim düşmən önündə
İgid oğul, ər oğul
Vətənin şöhrətidir
Tədbirli rəhbər oğul
Xalqın səadətidir.
Gül üstə gül bitirir
Övladın fərliləri
Vətən tarixi olur
Elin hünərliləri.
Sizə uğurlu yollar
Şücaətli oğular
Vətənin qartalları!
Qədirbilən xalqımız
Bəzəyərək güllərlə
Keçdiymiz bu çətin,
Bu əzablı yolları!

**Aparıcı:** Hər bir şəxs gələcəyini düşünərək yaşayır, çünki hər bir günün sabahı var. Müasir gənclərimiz həm öz, həm də ümumilikdə Azərbaycanımızın gələcəyi üçün daim çalışmalı, pis vərdişlərdən kənar durmalıdı. Gəlin vətənimizi göz bəbəyimiz kimi qoruyub onun keşiyinə duraq. Ulu öndərimiz Heydər Əliyevin və hörmətli prezidentimiz İlham Əliyevin bizə

olan etimadını doğruldaq. Azərbaycanımızı gündən-günə inkişaf etdirək.

**Aparıcı:** Bu gün vətənimizin keşiyində duran bir çox gənclərimiz var. Hal-hazırda onların sayəsində torpaq üzərində rahat gəzirik. Bunun üçün onlara borcluyuq. Onlar ən müqəddəs borclarını yerinə yetirirlər. Vətənə olan borclarını! Biz hamımız pis vərdişlərdən əl çəkməli, Vətənimizin, xalqımızın etimadını doğrultmalıyıq. Məhz bu gənclər haqda Heydər Əliyev demişdir: "Orduda xidmət edən gənclər bizim dəyərli vətəndaşlarımızdır. Onların əksəriyyəti gənclərdir.

Onlar vətəni qoruyurlar, düşmənlə üzbəüz mövqedə dayanırlar, Azərbaycanın müstəqilliyini qoruyur və möhkəmləndirirlər.

Lazım gələn anda məhz onlar doğma torpaqlarının azad olunması üçün ilk addımı atacaqlar".

**Aparıcı:** Vətənpərvərlik Vətənə, doğma torpağa, xalqa, onun dilinə, adət-ənənələrinə, mədəniyyətinə məhəbbət deməkdir. Əsl vətəndaş isə Vətənin içində gəzən yox, Vətənin özünü öz içində gəzdirəndir. Əsl Vətəndaş Vətəni ana qədər sevən, əzizləyən, qoruyandır.

Gəlin, biz də əsl vətəndaş olmaq üçün Vətənimizi göz bəbəyimiz kimi qoruyaq. Çünki Vətən hər şeydən ucadır! Bunu hər bir kəs dərk etməli, zamanını səmərəli işlərə sərf etməli, pis vərdişlərdən kənar gəzməlidir. Onda yenilməz olarıq!

Ədəbiyyat siyahısı


***Qanunvericilik sənədləri İnternetdə***

Uşaq hüquqları haqqında Konvensiya (BMT-nin Baş Məclisinin 44-cü sessiyasında 20 noyabr 1989-cu il tarixində qəbul edilib) // www.migration gov.az

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu // www.e-qanun.az/framerwork

"Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu // www.e-qanun.az/framerwork

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu // www.e-qanun.az/framerwork

Kitablarda

**Çoxşaxəli beynəlxalq hüquq** - Bakı : Elm və Təhsil, 2013. - 324 s. - Azərbaycan, ingilis və rus dillərində.

Dövri mətbuatda

**Atakişiyeva G.** Uşaq hüquqları Azərbaycanda : maarifçilərin başlatdığı yol // Azərbaycan Müəllimi. - 2017. - 27 oktyabr. - № 41. - S. 7.

**Bahar Muradova: Azərbaycan** dövləti uşaqların hüquqlarının qorunmasına xüsusi diqqət və qayğı ilə yanaşır // Respublika. - 2016. - 16 dekabr. - № 279. - S. 4.

**Dövlət qurumları uşaq** hüquqlarının qorunmasında səmərəli fəaliyyət göstərirlər : Azərbaycan uşaqlarının IV Ümumrespublika forumu keçirilib // İki sahil. - 2017. - 21 noyabr. - № 212. - S. 8.

**Əliyev R.** Azərbaycanda uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir : [Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyevin www.yap.org.az saytına müsahibəsi] // Yeni Azərbaycan. - 2016. - 2 iyun. - № 98. - S. 6.

**Hüseynova H.** Uşaq hüquqları: dünəndən bu günə // Yeni Azərbaycan. - 2018. - 5 iyun. - № 106. - S. 5.

**Hüseynova H.** Uşaq hüquqlarının təmin olunması dövlətin əsas məqsədləri sırasındadır : Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın www.yap.org.az saytına müsahibəsi // İki sahil. - 2017. - 1 iyun. - № 96. - S. 14.

**Ömərov V.** Beynəlxalq sənədlər uşaq hüquqları haqqında // Səs. - 2018. - 29 iyun. - № 120. - S. 13.

**Ömərov V.** Küçə uşaqları problemi və uşaqların hüquqlarının müdafiəsinə dair dövlət siyasəti // Səs. - 2018. - 14 iyul. - № 131. - S. 15.

**Ömərov V.** Uşaq hüquqları beynəlxalq qanunlarda // Səs. - 2018. - 3 iyul. - № 122. - S. 15.

**Ömərov V.** Uşaq hüquqları haqqında Konvensiyada uşaq hüquqlarının müdafiəsi məsələləri // Səs. - 2018. - 28 iyun. - № 119. - S. 13.

**Ömərov V.** Uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq nəzarət // Səs. - 2018. - 22 iyun. - № 116. - S. 15.

**Ömərov V.** Uşaq hüquqlarının müdafiəsi tarixindən // Səs. - 2018. - 1 iyun. - № 104. - S. 15.

**Ömərov V.** Uşaq hüquqlarının müdafiəsinin əsas istiqamətləri // Səs. - 2018. - 15 avqust. - **№ 153**. - S. 15.

**Ömərov V.** Uşaqların hüquqlarının müdafiəsi günü // Səs. - 2018. - 31 may. - № 103. - S. 15.

**Ömərov V.** Uşaqların hüquqlarının müdafiəsinə dair BMT sənədləri // Səs. - 2018. - 15 iyun. - № 114. - S. 15.

**Ömərov V.** Uşaqların öz hüquqlarını bilmək və öyrənmək yolları // Səs. - 2018. - 30 iyun. - № 121. - S. 15.

**Ömərov V.** Uşaqların sağlamlıq və təhsil hüququ // Səs. - 2018. - 17 iyul. - № 132. - S. 15.

**Ömərov V.** Valideyn və uşaqların münasibətlərinin tənzimlənməsi // Səs. - 2018. - 13 iyul. - № 130. - S. 15.

**Süleymanova E.** Gələcəyimiz naminə uşaqlara qayğı // Respublika. - 2016. - 20 noyabr. - № 257. - S. 4.

**Süleymanova E.** Uşaq hüquqlarının müdafiəsi və təşviqi dövlətimizdə ali məqsədlərdəndir // Respublika. - 2018. - 23 noyabr. - № 262. - S. 6.

**Süleymanova E.** Uşaqların hüquqlarının müdafiəsi hər birimizin borcudur // Respublika. - 2017. - 19 noyabr. - № 254. - S. 4.

# Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması, insan alverinə qarşı mübarizə üsulları

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88; E-mail:info@clb.az URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır: 17.04.2020
Tirajı:100
Pulsuz